# "QURDAĞZI DUASI" POEMASINDA HƏSRƏT YANĞISI



*Şəddat CƏFƏROV,*
*iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru,*
*Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü,*
*Beynəlxalq Yazarlar Birliyinin üzvü*

*(Əvvəli ötən sayımızda)*

Həmişə düşünürəm ki, insanlıq müəyyən şüura, düşüncəyə sahib olduqdan sonra ədalət uğrunda, həqiqət uğrunda da mübarizəyə başlayıb. Çox güman ki, əcdadlarımız hələ mağara həyatı yaşayan zamanda belə özünü qoruma instinkti ilə hərəkət edib. Nəinki vəhşilərdən, yırtıcılardan, elə öz həmcinslərindən də qorunmağa məcbur olub. Çünki yem əldə olunması çətin olduğu üçün mağaralararası müharibələr də səngimirdi.

Dostum Əli Rza Xələflinin "Od" romanında mağara insanının öz həyatını hifz etmək uğrunda mübarizəsi çox maraqlı detallarla təsvir olunub, müəllifin təxəyyülü çox uzaq keşmişlərin mənzərəsini təsəvürümüzdə canlandırmağa imkan verib. İndiki dövrümüzdə də sanki əcdadlarımızın apardığı həyat uğrunda mübarizənin davamını baş verən olaylarda, hadisələrdə görmək elə də çətin deyil.

Ə.R.Xələflinin "Qurdağzı duası" poemasında bir xalqın öz hüquqları uğrunda mübarizəsinin poetik tarixi kifayət qədər sərtliklə və çılpaqlıqla verilib. Axı necə ola bilər ki, qırx milyonadək insanın öz dilində yazıb danışması mümkün olmasın. Hətta dünyanın ən az inkişaf etmiş ölkələri var ki, onlar da bu həqiqəti çox böyük acılıqla qarşılayırlar.

Əslində, "Qurdağzı duası" poemasının əsas məramı elə bundan ibarətdir ki, Azərbaycan dilini bilən, türk dilini az-çox qavrayan hər kəs soydaşlarımızın acı taleyindən xəbərdar olsunlar. Müəllif əsərinin baş qəhrəmanını müraciət obrazı kimi Xalq şairi Söhrab Tahiri təsadüfi seçməyib. Məlumdur ki, S.Tahir Pişəvəri hökumətinin icra aparatında işləyib. Hələ çox gənc olan Söhraba Pişəvəri şəxsən özü çox inanırdı. Bəli, bu gənc mübariz, xalqının hüquqları uğrunda mübarizəyə qoşulmuş S.Tahir Pişəvərinin möhrdarı idi. Ə.Xələfli danışır ki, S.Tahir o dövrün olaylarını xatırlayarkən belə bir əhvalatı da dilə gətirmişdi: "Bir gün Pişəvəri məni çağırıb dedi ki, Söhrab, möhür həmişə səndə qalacaq, onu kiçik bir dəri torbaya qoyarsan, boynundan asarsan. Evdə də heç kimə demə ki, sən möhrdarsan. Mən Pişəvərinin dilindən bu sözləri eşidəndə xeyli həyəcanlandım. Hökumətin başçısı hökumətin möhrünü mənə etibar edirdi. Mən təhsil üçün həmyaşıdlarımla birgə bu taya göndəriləncən möhürdar oldum. Pişəvərinin kabinetinin yaxınlığında olurdum. Nə vaxt möhür lazım oldu, məni çağırırdı. Bu, şərəfli bir iş idi. Müstəqil hökumətin möhrdarı olmaq missiyası ilk dəfə mənə tapşırılmışdı. Çox təəssüf ki, hökumətimiz yaşaya bilmədi. Ona şuh irticası boğdu. Əlbəttə, Stalin də xəyanət etdi, ingilislər də şahın tərəfində oldu. Ən pisi də odur ki, hərəkatın minlərlə üzvü qan içində boğuldu. Daha mən də təhsildən sonra geriyə qayıda bilmədim". Ə. Xələflinin danışdığı bu xatirə kifayət qədər sarsıdıcıdır. Ən müqəddəs arzuların yırtıcılıqla məhv edilməsinə güzgü tutan xatirələrdir. İndi demokratiyadan danışan Qərb ölkələri o vaxt minlərlə insanın öldürülməsinə çox biganəliklə müşahidəçi oldular.

Bəli, S.Tahir öz sağlığında "Söhrab Tahirə məktub" qəsidəsini oxumuşdu. Şübhəsiz, həmin qəsidədəki sarsıdıcı beytlər, misralar onun yaddaşında çox böyük həsrət yanğısı yaratmış, həyəcanlarla əks-səda vermişdi. Təəssüf ki, 2016-cı ildə S.Tahir Təbriz həsrətilə gözlərini dünyaya əbədi yumdu. Amma onun odlu-alovlu şeirləri, çox dəyərli nəsr yaradıcılığı,, hekayələri, romanları, hətta elmi-tədqiqat əsərləri əbədi-yaşarı yaradıcılıq örnəkləri kimi onun xatirəsini əbədi olaraq yaddaşlarda saxlayacaqdır.

Ə.R.Xələfli "Qurdağzı duası" poemasında iyirmi il bundan əvvəl yazdığı qəsidənin yanğı motivlərini saxlamaqla cənublu qardaşlarımızın mübarizəsinə mənəvi güc verən çox dəyərli yeni bir əsərlə öz münasibətini bildirir:

Görə bilməz el dərdini lovğa-lovğa ədailər,
Çərən-pərən siyasilər, dil-dil ötən sədailər,
Hər nöqtənin axarında hökmü verər nidailər;
Ərk qalası incik düşüb, neçə vaxtdı fədailər,
Harda qaldı, gəlib çıxmır ilin, günün bu çağında.

Bir şamanın duasından qəm ələyib, kədər ayır,
Görək niyə tarix belə ötən vaxtı hədər sayır,
Qoca Təbriz yarasından öpən sözün xəbər yayır;
Səttar xanın, Bağır xanın sümükləri sızıldayır,
Arzuları şaxta vurdu, qış dondurdu budağında.

İran taxtı... ağırlığı Azərbaycan dirəyində,
Ölkə bütün abad olsun arzu, istək diləyində,
Qırmanc yeri zolaq-zolaq haqq əvəzi kürəyində;
Söhrab Tahir, namərd dünya od qaladı ürəyində,
Dağ olmayan dərdlərinin yağı yandı cızdağında.

Göründüyü kimi, müəllif yeri gəldikcə tarixi şəxsiyyətlərə, tarixi obrazlara müraciət edir, Ərk qalasını xatırlayır. Məlumdur ki, şah irticası müstəqil hökuməti boğmaq üçün fədailərin üstünə qoşun yeritmiş və amansızlıqla qırğın törətmişdi. Fədailər isə ölümlərdən, qanlandar çəkinməyərək öz əzmlərini, qəhəmanlıqlarını ruhlarının bayrağı kimi göstərirdilər. O zaman Ərk qalası fədailərin sonuncu istinad yeri olmuşdu. Demək, Ərk qalasının xatırlanması, əslində, o tarixi hadisənin xatırlanması deməkdir. Yaxud müəllif həyəcanlı, odlu duyğularla Səttar xanı, Bağır xanı xatırlayır. Onlar da Məşrutə hərəkatının - XX əsrin əvvəllərindəki azadlıq mübarizəsinin qəhrəmanlarıdır. Bir sözlə, İranın tarixində azadlıq uğrunda mübarizənin hansı gücdə olduğunu görmək üçün bu bədii əsər kifayət qədər dəyərli təəssürat mənbəyidir. Məlumdur ki, Şəhriyar məşhur "Azərbaycan" şeirində İranın qüdrətinin məşz Azərbaycan sayəsində mümkün olduğunu təsdiqli demirdi.

Xələfli də "İran taxtı... ağırlığı Azərbaycan dirəyində" deyərkən, əslində, Azərbaycanın İran üçün nə demək olduğunu diqqətə çəkir. Müəllif xüsusi bir yanğı ilə diləklərin, istəklərin necə yanıb kül olduğunu və namərd dünyanın ürəyimizdə od qaladığını yaddaşlardan silinməyəcək bir gücdə poemasına gətirir.

Sanki tarix həmin hadisələri təzədən təkrarlayır. Bu gün İranda yenə haqq-həqiqət uğrunda mübarizəyə qalxan insanlara qarşı edam ağacları qurulub, insanlar dara çəkilir. Həqiqət çağıran adamların dilləri kəsilir. Əslində, dünyanın heç yerində belə cəza üsulları yoxdur7 Müəllif poemasını davam etdirir:

Söhrab Tahir göyümüzdə ildırımlar çaxır yenə,
Bulud-bulud duyğuları, fikirləri yaxır yenə,
Zaman yollu, yaddaş dilli tarix bizə baxır yenə;
Behrəngini boğan sular boz-bulanıq axır yenə,
Diri gözlü can üstədir o dağın da, bu dağın da.

Azadlıqda vüsal yolu, keçə bilsə bir nəfərin,
Həsrətinə qovuşmayan əvəzidir min səfərin,
Dərd içində özü çəkir ağrısını bu kədərin;
Min ildir ki, dərd daşıyır sınıq düşüb Xudafərin,
Dərd daşıyır, ələm çəkir o tağın da, bu tağın da.

Hər yalana uyma hələ, hər küləyə uçma hələ,
Sözümə də deyirəm ki, muştuluğa qaçma hələ,
Qəzəbini boğub saxla, zamanı var, saçma hələ;
Söhrab Tahir, əllərini yumruq elə, açma hələ,
Nahaq qanım göl-göl olub Xan Arazın qırağında.

Nə etmək olar, müəllif həqiqət uğrunda, azadlıq uğrunda həyəcanlı çağırışlar etsə də vəziyyətin nə qədər ağır olduğunu da dərk edir. Ona görə də bir çox hallarda insanları ağılla, təmkinlə hərəkət etməyə səsləyir. Çünki hər hansı bir sərt hərəkətdən qəvi düşmən öz istədiyi kimi yararlana bilir. Qəribədir ki, müəllifin Cənubla bağlı, Azırbaycanın taleyi ilə bağlı bütün yazılarında Xudafərin və Araz obrazları çox qabarıq keçir. Orta əsrlərin ara müharibələri, tarixi Xudafərin körpülərindən birinin o tay-bu tay tağlarını uçurub. Müəlif burada qəribə yanaşma ilə "Sınıq düşüb Xudafərin", - deyir. Doğrudur ki, "sınıq düşüb" ifadəsinin həm həqiqi, həm də məcazi mənası var. Həqiqi mənası odur ki, doğrudan doğruya Xudafərin körpülərinin qanadları sındırılıb. Məcazi mənası isə odur ki, körpünün üstündən keçib gələn yoxdursa, bir sözlə, körpü insanların birliyinə xidmət etmirsə, demək, memarının niyyəti puç olub, yəni körpü sınıq düşüb.

Etiraf etmək lazımdır ki, əsərin xüsusi həyəcan və bir qədər də pafosdan qaynaqlanaraq yazılması oxucusunun ruhunu qeyri-adi dərəcədə səfərbər edir. Müəllif tarixi həqiqətləri deməkdən çəkinmir. Ancaq burada maraqlı bir ifadə də işlədir: "ya qanana, ya yanana..." Həqiqətən səni dinləyən, qanan, başa düşən adamdırsa, nə dediyini göydə bilər. Hətta dediklərinə savadı çatmasa belə, ruhən, mənən doğru üçün, həqiqət üçün yanandırsa, onun da ruhu səfərbər olar.

Müəllif yeri gəldikcə maraqlı aforizmlərə bərabər misralar işlədir: "Dərdi əkmə, qəm biçərsən". Doğrudan da əkmək və biçmək anlamları arasında sıx məntiqi bağlılıq var. Müəllifin poetik düşüncələrini dinləmək daha dərin təəssürat yaradır:

Ya qanana, ya yanana... bizdən yeylər belə demiş,
Dərdi əkmə, qəm içərsən... aqllərin diləyiymiş,
Bu nə bəxtdir, üstümüzə tükənməyən dərd ələmiş;
Söhrab Tahir, dərd var imiş dərd yanında şükür imiş,
Ağ dəvəni düzdə qoyduq gözüm qaldı göz dağında.

İlhamımdan nida gəldi, varlığıma söz ələndi,
Qoşun-qoşun fikirlərim qəzəb oldu, yüz ələndi,
Zənn eləmə tariximiz yad əllərdə düz ələndi;
Tiftik-tiftik heşan oldu, ilmə-ilmə çözələndi,
Qarabağın xalıları yağıların ayağında.

Söhrab Tahir, göy üzündən baxa bilsən bu diyara,
Görərsən ki, dərd ağacı Araz boyu dolub bara,
Yüz illərdir Təbrizimiz həsrət qalıb bir bahara;
Bir köşəyin ağrısına əvəz olar bircə yara,
Karvan azar ürəyində sıralanmış yüz dağında.

Açığı dərin təəssüratlar elə həyəcanlar yaradır ki, sözün üstündən asanlıqla keçib getmək olmmur. Müəllifin elə müqayisələri, elə bənzətmələri var ki, yaddaşımız mənəvi xəzinəmizin ən dərin qatlarındakı obrazları belə çəkib günümüzə gətirir.

Məşhur bayatıda kədərlə xatırlanan bir həsrət obrazı var: "Ağ dəvə düzdə qaldı, Yükü Təbrizdə qaldı, Oğlanı dərd apardı, Dərmanı qızda qaldı". Bu bayatını zaman-zaman hər birimiz nənələrimizin dilindən yana-yana dinləmişik. Ə.Xələfli də həmin bayatıdan gələn motivə biganı qalmır. Ağ dəvəni xüsusi bir ağrı ilə xatırlayır və mən həmin misranı bir də təkrar edirəm: *"Ağ dəvəni düzdə qoyduq gözüm qaldı göz dağında*". Tariximizə ayrı-ayrı vaxtlardakı biganəliyimizin bundan betər ittihamı olarmı? Yaxud yad ayaqları altında "tiftik-tiftik heşan olan", "ilmə-ilmə çözələnən" Qarabağ xalılarının acı taleyini bundan betər hansı obrazlarla sözə gətirmək olar ki, bu cür dərin həyəcan doğursun.

Ə.Xələfli xalq deyimlərindən, xalq rəvayət və əfsanələrindən məharətlə yararlanaraq öz əsərini daha canlı edir. Köşəyini itirmiş dəvənin göz yaşlarını, ürəyinin xallarını xatırlatmaq bəs edir ki, onun sözə necə ruhun dərin qatlarından gələn hisslərlə yanaşdığını dərk edəsən.

***(Davamı 11-ci səhifədə)***

# "QURDAĞZI DUASI" POEMASINDA HƏSRƏT YANĞISI

*(Əvvəli 10-cu səhifədə)*

Tarixin amansız çarxı hələ də xalqın ziyanın dövr edir, insanların iradəsinə, varlığına hökm edir. Ə.Xələfli sanki karvan-karvan sıralanan xalq dərdini, ağrı və acılarını sözə çəkməkdə davam edir:

Çox gözlədik, ömür bizə əl vermədi, yaş qıcadı,
Səndən gələn yolumuza yağıların daş qıcadı,
Yurdumuzu qəsb edənlər göz ağartdı, baş qıcadı;
Üzü dönmüş bu fələk də neçə kərəm diş qıcadı,
Gülüş dondu gözəllərin gömgöy olan dodağında.

Bizim şərəf tariximiz -kitab-kitab, bilim-bilim,
Parçalandıq, yağmalandıq bölgə-bölgə, bölüm-bölüm,
Talanmışıq kəlmə-kəlmə, kəsilmişik dilim-dilim
Dən tutmamış zəmilərin boğazlanır bəlim-bəlim,
Nə biçindi, qansız-qansız... biçinçinin orağında.

Söhrab Tahir, ulartım var, dağlar boyu qurd qoxulu,
Nəfəsim var bulud-bulud, torpaq-torpaq yurd qoxulu,
İnadlara sinə gərən inamları sərt qoxulu;
Ürəyimdə bir kitab var - Vətən adlı, dərd qoxulu,
Qoy el görsün nə yazılıb bu kitabın varağında.

Müəllif bəyan edir ki, onun varlığında elə bir kitab var ki, dərd qoxuyur, bütün sətirləri ağrı-acı ilə doludur. Amma bu kitab onun üçün ən müqəddəs kitabların hamısından üstündür. Bu, Vətən kitabıdır. Bu yerdə belə bir ifadə işlətmək lap yerinə düşər. Əslinə qalsa, Xələfli elə həmin Vətən kitabının - varlığındakı kitabın qan çilənmiş səhifələrini bu əsərə gətirib.

Çox sərt ittihamlar, qınaqlar da var. Bölüm-bölüm olmağımızın, regionçuluq, tayfaçılıq xəstəliyinin də başımıza bəla olduğunu çox böyük acılıqlarla misralara hopdurur:

Birlik olsa, kama çatar öz eşqində Oğuz boyu,
Xudafərin yasdan çıxar, məclis qurar türkün soyu,
Gün gələcək, çalınacaq Təriz üstə Turan toyu;
Qoca dərviş, tut əlimdən haray salaq Vətən boyu,
Baş əyərik Xətaiyə - Səfiəddin ocağında.

Səni yoldan eləmədi bu dünyanın varı-yoxu,
Varlığına güc gəlmədi tamahların azı-çoxu,
Qüruruna boyun əydi ehtiyacın acı, toxu;
Kəmanəni çəkmisənsə geri dönməz bir də oxu
Söhrab Tahir, ehtiyatın varmı sənin sadağında.

Azadlığın eşqinə bax, Fərhad gedib dağ yarsa da,
Darda qalan şiri gör ki, qəfəsində bağırsa da,
Bir «Qurd ağzı» duasına ümidlərin ağarsa da;
Şəhriyarın salamına Heydər baba çağırsa da,
Gordu baba - Ziyarətdən cavab yoxdu Kirs dağında.

Azadlıq eşqini dünyanın ən şirin mənəvi nemətlərindən hesab edən müəllif sanki bu hissin təsir günücü daha dolğun çatdırmaq üçün Fərhad obrazından yararlanır. Axı Fərhad öz eşqi naminə dağ çapan kimi yaddaşlarda yaşayır. Şübhəsiz, müəllifin Xudafərin obrazına təkrar-təkrar qayıtması, Təbriz və Turan obrazlarının birgə, yanaşı çəkilməsi, şübhəsiz müəllifin düşüncə istiqamətini Xətaiyə yönəldir, Səfiyəddin ocağını xatırlamalı olur. Təəssüf ki, bu gün elə məxluqlar tapılır ki, onlar Səfəvilər dövlətini Azərbaycan tarixindən silməyə çalışırlar. Xətaiyə yad münasibət bəsləyir, hətta bəzən düşmən obrazı kimi xarakterizə etməyə cəhd göstərirlər. Müəllif "Qurdağzı duası" ilə sanki xalqın taleyinə açılan bəxt qapısını arzulayır. Sanki həsrətlə gözləyir ki, bu xalqın qurdu ulasın, yəni bəxti açılsın. Şəhriyarın Heydərbabasını xatırladır. Təkcə xatırlatmır, çağırır. İstəyir ki, Heydərbaba dağı güc, qüdrət obrazı kimi xalqın ruhuna hökm etsin.

Mətndə Gördu baba, Kirs dağlarının adları çəkilir. Qarabağda, Şərqi Zəngəzurda bu dağların adlarını bilməyən yoxdur. Müəllif xüsusi yanğı ilə yenə Pişəvəri obrazına qayıdır, onun əllərini öz qoynundan çıxarmadığını xatırladır. Pişəvərinin qəbirüstü abidəsində o, əlləri qoynunda təsvir olunub. Bu da müəllifin müşahidəsindən gələn maraqlı məqamdır.

Əsər beləcə xüsusi yanğı və həyəcanla davam edir. Və yeni gələn hər bənd xüsusi obrazlarla yaddaşa yazılır:

Öz içindən yanan odla dolandırar günəş yeri,
Yerlə göyün arasında nizamlayır bu məhvəri.
Bu nizamın içində də yenə bilmir xeyir şəri;
Əllərini öz qoynundan çıxarmayıb Pişəvəri,
Bəhram-Gurun tacı qalıb iki şirin qucağında.

Söhrab Tahir, unutdunmu yaddaş-yaddaş qəm izləyən,
Sinəsində zaman yeyib, gözlərində il gizləyən,
Səndən ötrü diləyini oda tutub dil közləyən;
Həsrətinin bir küncündə bir ömürdə yol gözləyən,
Qədri qaldı «Vağzalı»sız rübəndində, duvağında.

Əsərdə adı çəkilən Qədri obrazı müəllifin nakam sevgi obrazının prototipidir." Qonşu qızın məktubları" povestinin əsas qəhrəmanı Qədrinin illər boyu həsrətlə o taya təhsil üçün getmiş amma yolu bağlanmış sevgilisinin dərdini çəkir. Yəni o, vüsala çatmır, "vağzalı"sı çalınmır.

Müəllif yeri gələndə xitabları dəyişir, müraciətlərinin formal adı dəyişsə də, əslində, əsas müraciət ünvanı həsrətli xalqın obrazı, həsrətli xalqın özünü təmsil edən S.Tahirdir. O, hərdən "Qoca tari", "Ey ustadım" kimi müraciətlərlə oxucusunu səfərbər edir, onun diqqətini bu möhtəşəm əsəri bir dastan kimi, bir nağıl kimi dinləməyə səfərbər edir:

Qoca tarix, dayan görüm, qələmimin gileyi var,
Səndən gələn bu bəlanın ağzı yanmış küləyi var,
Belə getməz, bu dövranın yaxşı-yaman ələyi var;
Araz üstə ruhu yanan bir memarın diləyi var,
Xudafərin körpüsünün kərpicində, suvağında.

Sinəsində odu sönmüş, ocağına qor gətirən,
Dilək dağı meyvəsindən istəyinə bar gətirən,
Ara divar hasarını yıxan oğul... zor gətirən;
Ürəyində ocaq yanır, Savalandan qar gətirən,
Qardaş hanı, kama çata teylənmişin, naçağın da!..

Böyük Məmməd Araz demişkən, dilimizdə o tay-bu tay dərdi bitəndən bəri bir ağrı obrazı da ruhumuzda yaşayır. Bu da Savalan obrazıdır. Qəlbimizin bütün ağrı-acıları, əslində, tarixdən gələn yaralarla bağlıdır. Bu mənada Savalanla Şah dağının arasından keçən tikanlı məftillər elə əslində bizim sinəmizin üstündən keçir. Müəllif də Savalan obrazına Xudafərin üstə gözləyən memarın həsrəti kimi baxır. Müəllif üçün Savalan dağı dilək dağıdır. Nə qədər ki, Diri dağı Xudafərinin başı üstündə ağrı çəkir, Qurbani sazının yanıqlı sədaları da sanki Araz sularına qoşularaq axmaqda davam edəcək. Ə.Xələfli ayrı-ayrı əsərlərində Diri dağını tez-tez xatırlayır. O qeyd edir ki, Qurbani təsadüfi demirdi ki, "Ölüm Allah əmridi, zülümdü Diri dağı."

Ə.Xələflinin "Qurdağzı duası" poemasının xüsusi bir dil zənginliyi də varn. Xalq arasında bir-birinə yaxın insanlara bağrı badaşdı deyirlər. Yaxud bağlı yolların daş-daş olduğunu qeyd edən müəllif elə bir günün gələcəyinə inanır ki, o vaxt qardaş əli o daş yolu gül-gül edəcək.

Xələfli Cənubi Azərbaycan birliyi, azadlığı üçün tarixdə böyük iz qoymuş obrazları xatırlayarkən Məhəmməd Biriyanı da unutmur. O, ömrünün iyirmi iki ilini sovet və fars zindanlarında çürütmüşdür. Pişəvəri hökumətində maarif naziri olan M.Biriya bu taya mühacirət edəndən sonra sovet rejiminin daha qanlı olduğunu görmüş və ümidlərinin necə daşa çalındığına təəssüf etmişdir. Ə.Xələflinin də poemasında onun adı xüsusi yanğı ilə keçir:

Qardaş çəkər qardaşına öz bağrından badaş yolu,
Bir gün gələr doğma əllər gül eyləyər daş-daş yolu,
Arzuların, diləklərin səpildiyi şabaş yolu;
Söhrab Tahir, buz bağlayıb azadlığın savaş yolu,
Bir gün olar çat görərik düşüncələr buzlağında.

Ey ustadım, bilirəm ki, od içindən, közdən keçdin,
Yaza-yaza yaratdığın salnamədən, sözdən keçdin,
Nəsil-nəsil ümidlərin yaratdığı gözdən keçdin;
Sən Məhəmməd Biriyadan qalan yoldan, izdən keçdin,
Həsrətləri misra-misra varlığına sızmağında.

Haqqa səsi yetmir daha, nə vicdanın, nə də dinin,
Divlər daha əsir deyil çırağında Ələddinin,
Üzü gülmür yol üstündə nə gələnin, nə gedənin;
Ürəklərdə ahı yanır İbrahimi Firudinin,
Diləklərdə günəş doğa xoş xəbərin salağında.

Min bir gecə nağıllarından gələn Ələddin və sehirli çıraq obrazları poemaya təsadüfi gəlməyib. Müəllif bu haqsızlıq dünyasının qəddarlığına qarşı dura biləcək bir güc arzulayır ki, o güc də fövqəl güc ola bilər, yəni Ələddinin çırağı ola bilər. Ancaq bu, o demək deyil ki, müəllif ümidsizləşir. O, Azərbaycanın azadlıq hərəkatının yenilməz obrazı kimi Firudin İbrahiminin adını yada salır. F.İbrahimi Pişəvəri hökumətində Cənubi Azərbaycanın baş prokuroru idi. Şah irticasından qaçıb qurtula bilərdi. Amma o, ölüm yolunu seçdi. F.İbrahimini edam etdilər. Onun məşhur Azərbayan tarixinə həsr olunmuş "Azərbaycan" tarixi oçerki şah istibdadına qarşı bir ittiham kimi yenə xatırlayırıq:

Dan üzünə səhər gülməz, hər yananın arzusuyla,
Günəş yanar öz içindən odlananın arzusuyla,
Qansızlar da boyun əyən bir qananın arzusuyla;
Bir limana gəmi gələr, bir ananın arzusuyla,
Nəsib olar Nəsibəsi istəklərin solağında.

Söhrab Tahir, görə bilsən göy üzündən qübarları,
Gör nə deyir, Xan Arazın göy suları, axarları,
Cənnətmisal Qarabağın payızları, baharları;
Hər yarpağı şapalaqdı Cəbrayılın çinarları
Fəqət neçə ələm yatır gövdəsində, yarpağında.

Söhrab əmi, sənin sözün hər yanıqlı səsdə qalıb,
Dilələri əsirlikdə, boynu bükük kəsdə qalıb.
Araz üstə buza dönmüş bir dodağı püstə qalıb;
Ərdəbildən gələn karvan Xudafərin üstə qalıb,
Dəvələri yük altında, şair yanır söz dağında.

Artıq oxuculara təqdim etdiyimiz bəndlərdə sadalanan adlar tarixin yaddaşından heç vaxt silinməyəcək.

Söhrab Tahirin anasının adı Nəsibə idi. Sonralar S.Tahir bu adı öz qızına da verdi. Nəsibə sözü nəsib olmaq, sahib olmaq demək idi. Bir ananın öz haqqına sahib olması üçün zaman-zaman mücadilə aparması gərək olmuşdur. Biz artıq əvvəlki qeydlərimizdə bu barədə danışmışıq.

Ata-babadan deyirlər ki, dəvəni, atı yük altında saxlamaq günahdır. Maraqlıdır ki, bir vaxt Xudafərin körpüsünü inşa edərkən memar həmin körpünü dəvə karvanlarını xatırladacaq şəkildə yaratmışdır. İndi müəllim sanki Xudafərin körpüsündə yük altında qalmış dəvələri göstərməklə xalqının həsrətini, ağrısını əks etdirir. Müəllif nə yazdığını yaxşı bilir, ona görə də deyir ki, sözlərimin hər budağı qan ağlayır:

Bilirəm ki, qan ağlayır sözlərimin hər budağı,
Qan ağlayır fikir-fikir, sinə-sinə yanan dağı.
Çox gözlədik, açılmadı bu tarixin qaş-qabağı;
Neçələri duza gedir, təpisə də dil-dodağı,
Hələ bilmir sellər yuyub duz da yoxdu, duzlağında.

Çəmənzarın üzü gülər, bülbül uçsa bir çəmənə,
Könül verər şeirim, sözüm hər sevənə, sevilənə,
Ustad, könül bağımdasan, mən heyranam hər nəğmənə;
Mənim adım Əlirzaydı, Əli Rza dedin mənə,
Otuz ildir qalmışam mən haqqı-sayın qınağında.

Misraları oxuduqca, ayrı-ayrı ifadələrin yaratdığı həyəcanlara qovuşduqca sanki oxucunun dil-dodağı təpiyir, sözlər köz kimi dili yandırır. Düşünürəm ki, yurd həsrətinin ağrı-acılarını bir qərinə qədər varlığında daşımış olan müəllif üçün bu poemanın, bu yanğılı misralarını yazmaq asan başa gəlməyib. O, qəlbinin oduna tutuşaraq bu əsəri belə yüksək emosiya və həyəcanla qələmə alı bilib.

Müəllif ustadına müraciət edərək deyir ki, "Mənim adım Əlirzaydı, "Əli Rza" dedin mənə". Bəli, tələbəlik dövründə Söhrab Tahir tələbələrlə görüşə gəlir, Əli Rzaya avtoqrafla kitab bağışlayır. "Azad qardaşım var" adlı kitabın titul səhifəsində belə bir avtoqraf yazır: "Əli Rza, gün olsun Təbrizdə, Səttarxan meydanında görüşək" Təsirlidir, deyilmi? Müəllif sanki bu əsəri ilə (həm qəsidəsi, həm də təxmisi ilə) sanki ustadın ona verdiyi adın borcundan çıxdığını bəyan edir. AMma əsas borc təkcə onun yox, bütün xalqımızın varlığına hakimdir.

Öz haqqı və hüququ uğrunda mübarizə aparan insanlara dayaq durmaq bu borcun missiyasını yerinə yetirməkdən irəli gəlir.

*(Davamı var)*